**SEVDA HÜSEYNOVA**
**Bakı Mühəndislik Universiteti**
**Xırdalan, Həsən Əliyev 120**
**shuseynova@beu.edu.az**

# ELIZABET TEYLORUN "ANJEL" ƏSƏRİNDƏ BAŞ QƏHRƏMANIN YARADICI ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASI FENOMENOLOGİYASI

**Xülasə**

Müasir ingilis ədəbiyyatı yaradıcı şəxsiyyət obrazının bədii təhlil müstəvisində araşdırılması üçün zəngin qaynaqlara malikdir. İngilis yazıçılarının öz əsərlərində yaratdıqları prototipləri, yazıçı "mən"i, müraciət etdikləri real yaradıcı şəxsiyyət obrazları, eyni zamanda bədii-uydurma yazıçı, aktrisa, rəssam və s. kimi obrazlar tədqiqatçıya elmi-tədqiqat işində geniş imkanlar təqdim edir. Bu baxımdan Elizabet Teylorun "Anjel" əsərinin bədii təhlil müstəvisinə çıxarılması işin səmərəliliyi üçün əhəmiyyətlidir. Yazıçının 1957-ci ildə qələmə aldığı "Anjel" əsəri özünün prototipi kimi qiymətləndirilir. Anjel adlı qızın yazıçı olmaq və uğur əldə etmək arzusu, dərin xəyal gücü, özünəməxsus üslubu və hadisələrə yanaşmasına görə əsərdə Elizabet Teylorun öz həyatını əks etdirdiyi təsdiqlənir. Elizabet Teylor özünəməxsus üslubu ilə seçilən yazıçı idi və baş qəhrəmanın canlandırdığı obrazın ziddiyyətli xarakterləri, oxucuda qərəzli düşüncələr yaratması onun fərqliliyinin sübutu idi. Bəli, Anjel Deverell bir çox baş qəhrəmandan fərqli olaraq gülməyi sevməyən, yumor hissi olmayan, yaşadığı dövrlə və həyatla ayaqlaşa bilməyən, daima öz xəyal dünyasında yaşayıb elə bir həyat yaşamağı arzulayan bir xarakterdir. Anjel sadə, kasıb bir ailədə dünyaya gəlmişdi. Lakin o, öz gələcəyini fərqli görür və özü üçün daha yaxşı bir həyat təsəvvür edirdi. 15 yaşında məktəbi tərk edən Anjel iradəsi, səyləri və gərgin zəhməti nəticəsində öz dövrünün yüksək statusa malik yazıçısına çevrilir. Anjel özünün oxumaq istədiyi kitabları yazırdı. Onun təfəkkürü sənətə olan ehtirasla aşır-daşır, düşüncəsi aydın, dərrakəsi çevik idi. Bunun nəticəsidir ki, o, oxucularına lazım olanı təqdim edə bilirdi. "Anjel" obrazı şəxsiyyət və yaradıcılığın vəhdətini özündə əks etdirən obrazdır. Onun keçdiyi həyat yolu, gördüyü, duyduğu, şahidi olduğu hadisə və insanlar bədii idrakının başlıca mənbəyidir. Onun həyat yolu ilə sənət yolu arasında sıx əlaqə və ahəngdarlıq vardır. Yaradıcı şəxsiyyət kimi Anjelin həyatı onun məsləyinin və ideyalarının bir aynasına çevrilmişdir.

**Açar sözlər**: yaradıcı şəxsiyyət, yazıçı, elmi-tədqiqat işi, özünəməxsusuluq, yaradıcılıq

Elizabet Teylor (3 iyul, 1912 – 19 noyabr, 1975) 20-ci əsrin görkəmli, özünəməxsus üslub tərzi ilə fərqlənən ingilis qadın yazıçısıdır. Kingsli Emisin onun haqqında söylədiyi "bu qadın əsrin ən görkəmli ingilis yazıçılarından biridir" sitatı onun qələminin möhtəşəmliyini təsdiq edir (4). Teylorun yaradıcılığı əsasən gündəlik həyatda qarşıya çıxan məsələləri və problemləri təsvir edir. Yazıçının əsərlərində İngilis cəmiyyətinin orta və yuxarı təbəqəsinin həyatının böyük məharətlə təsvir etməsi ona xüsusi oxucu kütləsi və sadiq dostlar qazandırmışdır. O, ingilis yazıçıları Ayvi Kompton-Burnet və Robert Liddellə dostluq edirdi. Onun Robert Liddellə uzun müddət davam edən yazışmaları 1951-ci ildə nəşr olunan "Məktub yazanlar" ("The Letters Writers") adlı qısa hekayələrindən birinin mövzusunu təşkil edir. Lakin Teylor öz şəxsi həyatının məxfiliyini qorumaq prinsipinə sadiq qalaraq məktubları məhv edir. Amerikalı yazıçı və tənqidçi Anna Tayler ("Anne Tyler") xanım Teylorun adını Ceyn Ostin, Barbara Pim və Elizabet Bouenlə birgə çəkərək onları "can dostları" adlandırırdı (1). Teylor eyni zamanda ingilis yazıçısı Elizabet Ceyn Hovardla yaxın dost idi. Altmış üç yaşında xərçəng

xəstəliyindən vəfat edən xanım Teylorun həyat yoldaşı Con Teylor Elizabet Ceyn Hovarda müraciət edərək ondan xanım Taylorun bioqrafiyasını yazmasını xahiş edir (3). Bioqrafiya yazmaqdan imtina edən yazıçı dostu ilə olan xatirələrini qələmə alaraq oxuculara bir memuar təqdim edir (2). 21-ci əsrdə onun yaradıcılığı kinomatoqrafların marağını cəlb etməyə başladı. Fransız rejissoru Fransua Ozon, 2007-ci ildə Britaniyalı aktrisa Ramola Qaray ilə Elizabet Teylorun "Anjel" romanının motivləri əsasında "Anjel Deverellin gerçək həyatı" adlı filmini lentə aldı.

Yazıçının 1957-ci ildə qələmə aldığı "Anjel" əsəri özünün prototipi kimi qiymətləndirilir. Anjel adlı qızın yazıçı olmaq və uğur əldə etmək arzusu, dərin xəyal gücü, özünəməxsus üslubu və hadisələrə yanaşmasına görə əsərdə Elizabet Teylorun öz həyatını əks etdirdiyi təsdiqlənir. Amma müəyyən fərqlər də vardır. Qüsursuz yazıçılıq qabiliyyətinə malik olan Teylor daha çox qısa hekayə janrına üstünlük verirdisə, əsərin baş qəhrəmanı Anjelica Deverell öz şeytani enerjisi və bitməz-tükənməz çılğınlığı ilə sanki roman yazmaq üçün yaranmışdı. Teylor gülməyi bacaran və əylənməyi sevən bir xarakterə malik idi. Lakin Teylordan fərqli olaraq Anjelica Deverell heç vaxt zarafat etməz, onunla zarafat edənlərdən küsər, inciyər və hətta bundan sonra onların hər bir hərəkətinə şübhə ilə yanaşardı. Xanım Teylor öz həyatında və başqalarının həyatında baş verənlərin peşəkar müşahidəçisi idisə, Anjel heç nəyə fikir verməzdi və öz bildiklərini yeganə həqiqi reallıq hesab edərdi.

İkinci Dünya müharibəsindən sonrakı növbəti üç onillik ərzində bir-birindən maraqlı əsərlər yazan Elizabeth Teylorun üslubunda ağıllı və düşünülmüş şəkildə tətbiq edilən formal bir məhdudiyyət hiss olunur. Yazıçı əsərlərinin üfüqlərini məhdudlaşdırsa da, möhtəşəm bir yazıçılıq texnikası ilə qəhrəmanlarını xüsusi cizgilərlə səciyyələndirir. Bu xüsusiyyət Teylorun bütün yaradıcılığına təzahür edən yeganə həqiqətdir və onu baş qəhrəmanı Anjel ilə birləşdirən ortaq cəhətdir. Onların hər ikisi də düşünür ki, yaxşı yazıçı da, pis yazıçı da sənətindən, əsərlərindən danışarkən kənardan eyni cür səslənir. Onların yaradıcılıqdakı erkən mübarizələri, daxili zəfər və uğur hissləri də eynidir. Onları fərqləndirən yeganə yol özünəməxsusluğun olub-olmamasıdır.

Elizabet Teylor özünəməxsus üslubu ilə seçilən yazıçı idi və baş qəhrəmanın canlandırdığı obrazın ziddiyyətli xarakterləri, oxucuda qərəzli düşüncələr yaratması onun fərqliliyinin sübutu idi. Bəli, Anjel Deverell bir çox baş qəhrəmandan fərqli olaraq gülməyi sevməyən, yumor hissi olmayan, yaşadığı dövrlə və həyatla ayaqlaşa bilməyən, daima öz xəyal dünyasında yaşayıb elə bir həyat yaşamağı arzulayan bir xarakterdir. Onun bir çox xarakterik əlamətləri ilk baxışdan oxucuda mənfi düşüncələrə səbəb olsa da, zamanla əslində onun bu qərəzli düşüncələrinin və ziddiyyətli xarakterlərinin təməlində sevgiyə aclıq, illərlə içində böyütdüyü xəyallarını gerçəkləşdirmək arzusu olduğu oxucuya məlum olduqca əsər və Anjel oxucunu özünə bağlayır.

Əsər 15 yaşlı Anjelin dostlarına heç görmədiyi "Cənnət evi" adlandırdığı evdə qaldığı yalanını deməsi ilə başlayır, əslində isə anası ilə birlikdə anasının iş yerinin üzərində sadə bir evdə yaşayırlar. "Cənnət evi" adlandırdığı məkan isə xalasınn iş yeridir. Anası bu yalanı öyrənir və Anjelə çox qəzəblənərək ona şillə vurur. Bu şillə Anjelin ruhunda çox dərin yara açır və ilk qərəzli düşüncələri bununla məlum olmağa başlayır. O, bu yalanı deyirdi çünki hər zaman "Cənnət evi"ndə yaşamaq onun arzusu idi və onun fikrincə əsərdə xalasının xidmətçisinin qızı olan digər Anjelina yox məhz özü o evdə yaşamalı idi- bu onun xəyalları idi. İlk cərəyan edən hadisələr artıq Anjelin daxili aləmindən xəbər verirdi. Dostları ilə olan evlilik haqqında müzakirələrindən də Anjelə məxsus başqa bir cəhət ortaya çıxır. Anjel ailə həyatı qurma ərəfəsində olan dostu ilə bu barədə müzakirə edir, dostu gəlinlik libası, toyun keçiriləcəyi məkan haqqında Anjelə söhbət açır, ancaq fikirləri üst-üstə düşmür. Anjel belə hesab edir ki, əgər aşiq olacağınız insanı tapmısınızsa, toyun məkanının və digər tədbirlərin əhəmiyyəti yoxdur. O, fiziki olaraq bir insanı idarə etmək deyil, həmin insanın qəlbinə və beyninə tamamilə

hakim olaraq iç dünyasını birləşdirib o dünyanı idarə etmək istəyirdi. Onda bu düşüncənin yaranmasına zəmin olaraq atasının yoxluğu göstərilir. Bu barədə o anası ilə mübahisə edir və anası "əgər atan öz işlərinin arxasınca bu qədər qaçıb bizi unutmasa idi, biz də sarayda yaşayardıq" deyir. Səhərisi gün anası ilə barışırlar. Anası Anjelin xəstələndiyini düşünür və xəstəliyin əlamətlərinə baxmaq üçün evdəki tibb kitablarını qarışdırır və həkim Fosketti çağırmaq qərarına gəlir. Həkim Anjeli müayinə edir, ancaq ciddi probleminin olmadığını deyərək resept yazaraq çıxır. Anjelin yazıçı olmaq istəyi və yazıçı olaraq yaşadığı macəralar əsərin bu hissəsindən etibarən başlayır. Anjel xəstə olduğu müddətdə evdə qalır, gözü rəfdəki kitablardan birinə sataşır, götürüb oxuyur, ancaq oxuduğu kitab onun diqqətinin cəlb etmir çünki onu maraqladıran və xəyal gücünü genişləndirəcək mövzudan yazılmamışdı, onun həyatına təsir etmirdi və o gün Anjel yazıçı olmaq istədiyinə qərar verir. Öz köhnə məktəb dəftərini ilk qaralaması olaraq istifadə edərək ilk əsəri "Xanım İraniya"nı yazmağa başlayır. Onda yaranan bu arzu şiddətli istəyə çevrilir və bunun qarşısında heç bir maneənin qalmağını istəmədiyi üçün öz istəyi ilə məktəbdən ayrılmağa qərar verir. Anası xanım Deverell və xalası xanım Lotti buna başda kəskin şəkildə etiraz edirlər, anası əgər məktəbdən çıxartsalar onun haqqında danışılacaqları bəhanə gətirir, ancaq Anjeli fikrindən yayındıra bilmir. Anjel qətiyyətli idi və Yeni il bayramından sonra bütün etirazlara rəğmən məktəbdən ayrılır. Yeni il ərəfəsi Anjel yazdığı romanı tamamlayır və Oksford nəşriyyat evinə gönədərir, ancaq rədd cavabı alaraq yazdığı əsərin nüsxəsi ona geri göndərilir. Anjel digər nəşriyyat evlərinin ünvanlarını tapır, ancaq romanını bu nəşriyyat evlərinə göndərməyə pulu olmadığı üçün kilsənin yanındakı kitab dükanında kitablarından birini sataraq qazandığı pul ilə əsərini Londondakı "Cilbrayt və Breys" nəşriyyat evinə göndərir. Bundan sonra Anjel ikinci romanı olan "Aktrisanın zəfər hekayəsi" adlı əsərini yazmağa başlayır. 16-cı ad günündə xalası Lotti onu digər xidmətçilərlə birlikdə işləməyə dəvət edir, ancaq Anjel bunu da rədd edir, və xalası ilə olan ailə bağları burada qopur, xalası ondan bərk inciyir və ona heç bir maddi dəstək verməyəcəyini vurğulayır. Qarşılaşdığı heç bir mənfi hadisə onu arzusundan geri döndərə bilmirdi, Anjel, heç kim ona inanmasa da, özünə inanaraq qətiyyətlə və əzmlə yazmağa davam edirdi.

Yayın əvvəlləri "Cilbrayt və Breys" nəşriyyat evindən Anjelə müsbət cavab gəlir, ancaq kitabı çap etdirmək üçün daha çox maddi vəsaitə ehtiyac var idi. Anjel bunu anası ilə məsləhətləşir, Anjelin qətiyyətini və istəyini görən anası onu dəstəkləyəcəyini bildirir və razılaşır.

Növbəti hadisələr artıq Londonda cərəyan edir. Anjel Teodor Cilbrayt ilə görüşür, Anjelin yaşının az olması Teodorda təəccüb doğurur. Bir az söhbətləşirlər və Anjelə yazıçılıq barədə verdiyi suallara aldığı cavablar Teodoru çox təəccübləndirir çünki Anjel digər yazıçılara bənzəmirdi, onun üslubunda və öz xarakterində fərqliliklər var idi. Anjel yaşına rəğmən heç gülmürdü, daima fikirli olurdu və mənfi cavablar verirdi, hətta Teo əsəri oxuyarkən Anjelin 40-dan çox yaşı olduğunu düşünmüşdü. Oxucunun maraqını cəlb edən digər maraqlı məqamsa, Anjelin əsər yazmağına baxmayaraq özünün heç kitab oxumaması idi. Bu fakt Teo ilə söhbətində oxuyuca məlum olur. Anjel sadəcə üç kitab oxumuşdu- biraz Şekspir yaradıcılığı, 3 muşketyorlar və Alman yazıçısının əsəri. Teo Anjelin öz xarakterindəki ziddiyyətlərin əsərə də yansıdığını deyir və üslub xətalarını vurğulayır. Anjel çox qədim dövrlərin terminologiyasından və o dövrün özünəməxsusluqlarından, qraflıqlardan və krallardan yazırdı. Teo həmkarı ilə məsləhətləşib ona xəbər edəcəyini bildirərək Anjeli yola salır. Anjel evə dönərkən ürəyində ağrılarının olduğunu hiss edir, ancaq bunun üzərində çox durmur.

Əsər sonradan Teo və həmkarı Uill Breys ilə Anjelin əsərin üzərində mübahisəsi ilə davam edir, belə ki Uill Breys Anjelin üslubunu və təcrübəsini bəyənmədiyini üçün əsərin çapını etməkdən imtina etmələrini istəyir, ancaq Teo Anjelin özünəməxsus üslubunu bəyənmişdi və ona bir şans verməli olduqlarını, zamanla təcrübəsi artdıqca çox daha gözəl

əsərlər ortaya çıxardaraq uğur qazanacağına inandığını deyərək fikrində sabit qalır. Uill Breys də sonradan həmkarı ilə razılaşır və kitabı nəşr etdirirlər, bütün əsər boyunca, yəni Anjelin bütün kitablarını məhz Teodor nəşr etdirir.

Hadisələr sonra daha fərqli şəkildə cərəyan etməyə başlayır. Anjelin anası evlərində böyük qonaqlıq təşkil edir. Xalası ilə birlikdə bir çox qonaqların da dəvət olunduğu bu ziyafət və həmin ziyafətdə tanış olduğu qonaqlar Anjelin həyatında mühüm rol oynayırlar. Ziyafətə Norleyin şahzadə nümayəndəsi də dəvətli idi və onunla birlikdə bacısıqızı şairə Nora Hou-Nevinson və bacısıoğlu Esmé Hou-Nevinson da gəlmişdilər. Ziyafətdə onlar bir-birləri ilə tanış olurlar və ümumi peşəkar olduqları sahələrdən söhbət açırlar. Bu zaman Esmenin rəssam olduğu məlum olur. Ziyafətdən ayrılmadan öncə Esme Anjeli onun əsərlərinə baxması üçün dəvət edir, Anjel də nəzakətlə bu dəvəti qəbul edir. Ziyafətdə tanış olduğu bu iki şəxs Anjelin həyatını dəyişir, belə ki Nora əsərin sonuna qədər Anjelin ən yaxın dostu və baldızı, Esme isə Anjelin həyat yoldaşı olur.

Sonra əsər Londonda Teo ilə Anjelin öz əsərləri barəsində söhbəti üzərində cərəyan edir. Anjel bir müddət əsərlərini yaza bilmir və bundan Teoya şikayət edir, öz üslubunda müəyyən qədər dəyişikliklər aparmaq istəyini ona bildirir. Teo isə onun əsərlərinin ilk yazmağa başladığı müddətdən nə qədər sanballı olduğunu və ciddi dəyişikliyə ehtiyacı olmadığını vurğulayır.

Ziyafətdən ayrılmadan öncə Esmə Anjeli öz qaleriyasına baxmağa dəvət etmişdi və Nora ilə ona xəbər göndərəcəyini deyir, ancaq Anjel bütün yay Esmədən xəbər tutmur. Sonra Nora ilə Anjel görüşürlər və Nora Esmə ilə birlikdə Avropada İtaliya və İngiltərəyə səfərlərindən söhbət açır və Esmenin onu gözlədiyini bildirərək ünvanını Anjelə verir. Anjel Esmenin görüşünə gedir. Burada Anjel və Esmenin bir çox xasiyyətləri oxucuya məlum olmağa başlayır. Esme ona qaleriyasındakı şəkilləri göstərir. Anjellə birlikdə əsərlərini təhlil edirlər və Anjel onun şəkillərindən birini 300 funt sterlinq qiymətinə ona satmasını xahiş edir. Hər ikisinin bir çox cəhətlərinin, oxucunun beynində Esme obrazının canlanmasına kömək edən və bütün düyünləri açan əsas nüans Anjelin Esmədən öz portretini çəkməsini istəməsi olur. Esme heç bir zaman portret çəkmədiyini deyərək bu təklifi başda rədd etsə də, Anjelin çoxsaylı və iddialı xahişlərindən sonra qəbul edir. Noranın özü də sonradan bu hadisəni eşidəndə təəccüblənir çünki Esme heç bir zaman heç bir qadının portretini çəkməmişdi və Esmenin Anjellə puluna görə əlaqə qurduğunu düşünürdü. Esmenin özü də fərqli hisslər keçirirdi çünki heç bir qadın indiyə qədər ona bu qədər fərqli və maraqlı gəlməmişdi və heç bir qadının qeyri-adi, sirrlərlə dolu olduğunu düşünmürdü. Anjellə qurduğu münasibət vasitəsilə o, Anjelin bir çox sirrli xüsusiyyətlərinə bələd olmağa başlayırdı və heç bir qadında görə bilmədiyi fərqli xəyal gücü, düşüncə tərzi onu valeh edirdi. Əslində Esme ilə Anjelin xasiyyətləri bir-birinə zidddir, Anjel daha dərin, cəsarətli və fədakar xarakterə sahibdir, ancaq Esme məsələlərə daha obyektiv, real yanaşır, düşüncə və hisslərini cilovlaya bilirdi. Bütün bunlara rəğmən Anjel onu ovsunlamışdı. Esmeylə Anjelin görüşündən sonra Esme bir kəlimə belə demədən bir müddət yoxa çıxır. Onun bu sirli gedişi bir çoxlarının ağıllarında Anjeldən qaçdığı düşüncəsini formalaşdırsa da, bu belə olmur. Anjel və Esme bir daha görüşürlər, Esme öz səmimi hisslərini və düşüncələrini açıb danışır, onu sevdiyini etiraf edir və öz üzüyünü ona bağışlayır.

Əsərin 4-cü hissəsi Esme və Anjelin balayından "Cənnət evi"-nə qayıtması ilə başlayır. Onlar balayı üçün Yunanıstan, İtaliya və Fransaya səyahət etmişdilər, ancaq heç bir şəhərlə bağlı xoş təəssüratları yox idi. Toy və balayı onlar üçün baha başa gəlmişdi, bir çox yerə borclanmışdılar, ikisi istirahətdən təzə qayıtmalarına baxmayaraq büdcəni artırmanın yollarını düşünürdülər. Avqust ayında Almaniya ilə başlanan müharibədə Esmenidə əsgərliyə çağırırlar və o, Fransaya getməli olur. Buna görə Anjel dərin kədər hissi keçirir və Esme ilə mübahisə edir. Anjel Esmenin onu başqa qadın üçün tərk etdiyini düşünür. Heç təsadüfi deyil ki, Anjelin

müharibə mövzusunda qələmə aldığı “İren” əsəri məhz onun mənəvi böhran keçirtdiyi dövrdə yazılmışdı. Günlərlə otağından heç çıxmadan o, əsərinin üzərində işləyirdi və heyvanlara olan meyli də bu dövrdə daha qabarıq özünü büruzə verirdi. Anjel heyvanlara çox bağlı idi, köhnə pişiyi Sultandan sonra Sezar və sonradan da aldığı 3 pişiyi var idi, artıq evdəki heyvanların sayı o həddə çatmışdı ki, Nora ondan bunu dayandırmasını xahiş edirdi. O, bütün günü əsərinin tamamlanması üçün işləyər, axşamlar da Sezarı gəzməyə çıxarardı.

Bir gün Teo Noranı onunla danışmalı olduğu vacib məsələlərin olduğunu deyərək onu Londona dəvət edir. Görüşdə Nora Anjelin keçirtdiyi böhrandan xəbərdar olduğunu və bunu əsərlərinə əks etdirdiyini bildirir. Nora bu məsələni həll üçün Anjellə danışacağını bildirərək Teonun yanından ayrılır.

1998-ci ilin yayında gələn Esmenin ölüm xəbəri hamını sarsıtsa da, Esme yaralı olaraq geri dönür. Esme müharibə zamanıda çox borclanmışdı, borclarını bağlaya bilmək üçün Anjeldən dəstək istəyir, Anjel isə nəyin bahasına olursa olsun ona kömək edəcəyini bildirərək onu rahatladır. Anjel çox dərin hissiyatı olan fədakar bir qadın idi və sevgisi uğrunda bütün gücü və əzmi ilə işləməyə başlayır, onun bir çox əsərləri bu dövrdə tamamlanmışdı. Anjelin həyatının bu dövrü də olduqca məşəqqətli keçirdi, o, Rusiya inqilabından və bəzi başqa məsələlərdən bəhs etdiyi əsərlərini yazır və kitablarını bəyənən oxuyucularından gələn məktubları oxuyub cavablandırırdı. Anjel üstündə işlədiyi kitabı sentyabrın əvvəllərində tamamlayaraq satır və borclarını bağlamaqda Esmeyə yardım edir. Bir müddət sonra isə Esme itgin düşür, hər yerdə ciddi araşdırma işləri aparılır və göldə boğulmuş vəziyyətdə tapılır.

Əsərin beşinci hissəsində artıq Esmenin ölümündən 15 il ötmüşdü və Anjelin həyatında çox dəyişikliklər baş vermişdi. O, bu dövr ərzində kariyerasının kuliminasiya nöqtəsinə çatmışdı, artıq arzuladığını gerçəkləşdirmiş yetkin bir qadın idi. Anjel hətta dilə gətirir ki, o, uşaq olanda arzularını gerçəkləşdirmək istəyəndə bu qədər nailiyyət əldə edəcəyini və bu qədər xoşbəxt olacağını təsəvvür etməmişdi. Şübhəsiz ki, hər güclü qadında olduğu kimi Anjel də öz həyatında ciddi çöküşlər yaşamışdı, hər şeydən əvvəl o, öz həyat yoldaşını itirmişdi, ancaq Anjel taleyin hər şeyin daha da pis olmadan onu əlindən almasına müsbət cəhət kimi yanaşırdı. Onun fikrincə onların evlilikləri çox xoşbəxt bir evlilik hesab oluna bilməzdi və həyatın belə gətirməsi onu sevindirirdi. Bütün yaşadıqlarından sonra ətrafında çox az insan qalmışdı, onlar ən yaxın rəfiqəsi Nora, xanım Bens və köhnə dostu Teodor idi.

Bir gün Anjel, Teo, Nora və xanım Bens birlikdə çay içib, söhbət edirdilər və müzakirə etdikləri mövzuda Esmenin kitablarından birinin faydalı olduğunu düşündülər. Anjel kitabı vərəqləyəndə kitabın içindən məktub tapır və oxuyur. Məktub Esmeyə ünvanlı idi və aydın idi ki, Esme məktubu atmağı unutmuşdu çünki məktubun içində yazılanlar Esmenin Anjelə xəyanət etməsi barədə olan sirri açığa çıxarırdı. Məktubda “Esme, mən başqası ilə evlənmişəm və yoldaşıma sənin barəndə heç bir şey deməmişəm, hər şeyi keçmişdə buraxaraq öz həyatlarımıza davam etməmiz ən doğrusu olacaq” yazılmışdı. Məktubun bir hissəsi cırılmışdı və digər hissəsində isə “tərk etmək” yazılmışdı. Anjel bunu Esmenin ona xəyanət etməsi ilə əlaqələndirdi. Nora isə bunun tamamilə təsadüf olduğunu bildirdi. Teo bütün həqiqətləri bilirdi, sadəcə hadisənin üzərindən çox keçdiyi üçün susmağa üstünlük verdi. Zərfin içindən sonradan tapılan Esmenin başqa bir qadınla şəkli artıq bir çox şübhələri təsdiq edirdi. Bu hadisədən sonra Teo duyduğu dərin iztirabdan uzun müddət ortaya çıxmır.

Əsərin son hissəsində Anjel artıq yaşlanmışdı və yaşı ilə əlaqədar onda bəzi xəstəliklər üzə çıxırdı. O, çox öskürürdü, həkim ona sətəlcəm diaqnozu qoymuşdu. Yeni il ərəfəsində soyuq bir gündə Anjelin “İpəyim” adlandırdığı pişiyi itir. Anjel onu hər yerdə axtarır, soyuqda çölə çıxır, ancaq tapa bilməyib məyus halda geri dönür. Gecənin bir yarısında çöldən pişik səsləri eşidərək həyətə çıxır, pişiyini şaxtadan donmuş vəziyyətdə tapır. Anjel həmin günün səhəri vəfat edir. Ölüm anı həm də Anjelin gözündən təsvir edilib, Anjel qıraqdan özünü görür

və "Mən Anjel Deverelləm" deyə qışqırsa da Nora onu eşitmir, bu zaman o, öldüyünü anlayır. Nora Anjelin ölümü ilə dərin iztirab hissi keçirir, evi yır-yığış edəndə Anjelin yazdığı vəsiyyətini tapır. Vəsiyyətə görə Anjel bütün mirasını Noraya və Teoya, öz əlyazmalarını isə Britaniya muzeyinə buraxmışdı...

Anjel özünün oxumaq istədiyi kitabları yazırdı. Onun təfəkkürü sənətə olan ehtirasla aşır-daşır, düşüncəsi aydın, dərrakəsi çevikdir. Bunun nəticəsidir ki, o, oxucularına lazım olanı təqdim edə bilir.

## Ədəbiyyat


1. "Anne Tyler recommends". Fantastic Fiction. Retrieved 28 March 2014.
2. Bailey, Paul (2004). "Taylor, Elizabeth (1912–1975)". Oxford Dictionary of National Biography (online ed.). Oxford University Press. Retrieved 23 October 2017.
3. Gordon, Edmund "Elizabeth Taylor's last secret". Times Literary Supplement, 22 April 2009.
4. https://www.britannica.com/biography/Elizabeth-Taylor-British-novelist
5. Taylor, E. Angel. London. Virago press. 1984. 250 p


**S.Huseynova**

## Formation phenomenology of creative perspectives of a main hero in "angel" by elizabeth taylor


**summary**

Contemporary English Literature has rich sources of research for the artistic analysis of the creative character. The prototypes and "self" of the writers themselves in their works, the characters of realistic creative people, as well as the characters of artistic-fiction writers, actresses, artists and others provide the researcher with a wide range of opportunities for research. From this point of view, the introduction of Elizabeth Taylor's "Anjel" to the artistic analysis is important for the effectiveness of the work. The novel "Angel", written in 1957, is regarded as the prototype of the writer herself. Anjel's passion for writing and achieving success, deep imagination, her style and approach to events is a proof of it. Elizabeth Taylor was a well-known writer, and the contradictory character of the protagonist's image, the biased thinking of the reader proves her distinction. Yes, Angel Deverell is a character who does not like laugh, who does not have a sense of humor, can not keep up with her life, but always dreamed of living in her dream world. Angel was born in a simple, poor family. But she sees her own future differently and imagines a better life for herself. Angel, who left school at the age of 15, is transformed into a high-profile writer of her time as a result of her efforts and hard work. Angel wrote the books she wanted to read. Her thinking was overwhelming with passion for art, her thoughts were clear, her mind was agile. As a result, she was able to present her readers what they needed. The image of "Angel" is an image reflecting the unity of personality and creativity. Her way of life, what she sees, knows, witnesses, and people are the main source of her artistic intelligence. There is a close relationship and harmony between her creativity and way of life. Angel's life as a creative person becomes a mirror of her missions and ideas.


**Key words**: creative personality, writer, research work, self-peculiarity, creativity

**Севда Гусейнова**

**Феноменология формирования творческих перспектив главного героя в «ангел» элизабет тейлора**

**резюме**

Современная английская литература имеет богатые источники для исследования творческой идентичности творческой личности. Прототипы британских писателей в своих произведениях, их реалистичные творческие образы личности, а также актрисы, художники и другие предоставляют исследователю широкий спектр возможностей для исследований. С этой точки зрения, введение «Ангел» Элизабет Тейлор в художественный анализ имеет важное значение для эффективности работы. «Ангел», который писатель написал в 1957 году, считается ее прототипом с своей страстъ к добиватся успеха, глубокого воображения, собственного стиля и своего подхода к событиям. Элизабет Тейлор была известным писателем, и противоречивый характер образа главного героя, предвзятое мышление читателя доказало ее различие. Да, Ангел Деверелл - персонаж, который не любит смеяться, не имеет чувства юмора, не может не отставать от своей жизни, но всегда мечтал жить в мире своей мечты. Ангел родился в простой бедной семье. Но она видит свое будущее иначе и воображает лучшую жизнь для себя. Ангел, который бросил школу в возрасте 15 лет, благодаря своей усилиям и тяжелой работе превращается в известного писателя своего времени. Ангел написала книги, которые она сама хотела прочитать. Ее мышление было переполнено страстью к искусству, мысли были ясны, ум был проворен. В результате она смогла представить то, нужно своим читателям. Образ «Ангела» - это образ, отражающий единство личности и творчества. Его образ жизни, то, что она видит, знает, свидетели и люди являются основным источником ее художественного интеллекта. Между ее личности и образом жизни существует тесная связь и гармония. Жизнь Ангела и ее творческой личности стала зеркалом ее миссии и идей.

**Ключевые слова**: творческая личность, писатель, исследовательская работа, особенность, креативность

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 26.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Leyli Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur